**Nigar Arpadarai: COP29-da əsas prioritet iqlim dəyişikliyi problemlərinin həllinə sərmayə cəlb etməkdir**

COP29-da əsas prioritet iqlim dəyişikliyi problemlərinin həllinə sərmayə cəlb etməkdir.

AZƏRTAC xəbər verir ki, bu sözləri COP29-un İqlim üzrə yüksək səviyyəli çempionu, Milli Məclisin deputatı Nigar Arpadarai "COP29-a Aparan Yol: Dayanıqlı və Davamlı Gələcək" mövzusunda Yüksək Səviyyəli 29-cu Toplantı çərçivəsində təşkil edilən "Elm, texnologiya və innovasiyanın rolu" mövzusunda panel müzakirələrində çıxışında deyib.

O qeyd edib ki, maliyyə riskləri sürətlə artır.

"Biz yaşıl innovasiyaları dəstəkləmək üçün universitetlərimizi və tədqiqatçılarımızı inkişaf etdirməliyik. Bu, nəinki artımı stimullaşdıran, həm də seqreqasiyanı azaldan yeni məhsullar və proseslər yaratmaq üçün ən son texnologiyaların, ideyaların tətbiqi deməkdir. Azərbaycan milli və beynəlxalq səviyyədə əməkdaşlığı gücləndirməyə sadiqdir", - deyə N.Arpadarai əlavə edib.

**AZƏRTAC**
**2024, 20 iyun**